# Tovuz döyüşlərindən 4 il keçir



**Ordumuzun Böyük Qələbəyə - zəfərə doğru gedən yolu 2016-cı il şanlı Aprel döyüşlərindən, 2018-ci il Naxçıvanda Günnüt əməliyyatından və 2020-ci il Tovuz döyüşlərindən keçib. Tovuz döyüşləri ilə ordumuz tariximizə unudulmayan igidlik salnaməsi yazdı.**

2020-ci il iyulun 12-də Ermənistan artilleriya qurğularından istifadə edərək Tovuz rayonu istiqamətində mövqelərimizi atəşə tutdu. Qəhrəman Azərbaycan Ordusunun əkshəmlə tədbirləri nəticəsində düşmənin hücum cəhdinin qarşısı alındı, ona ciddi zərbə endirildi, ərazi itkisinə yol verilmədi. Həmin gün düşmənin hücumunun qarşısını alarkən ordumuzun üç hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb, beş nəfər isə yaralanıb. Eyni zamanda düşmən ordusunun şəxsi heyəti həmin döyüşlərdə çoxsaylı itki verib.

**(davamı 7-ci səhifədə)**

# Tovuz döyüşlərindən 4 il keçir



(əvvəli 1-ci səhifədə)

İyulun 13-nə keçən gecə Ermənistan hərbi birləşmələri Tovuz istiqamətində gərginliyi artırmaq məqsədilə iriçaplı pulemyotlardan, qumbaraatanlardan, snayper tüfənglərindən, minaatanlardan və digər artilleriya qurğularından istifadə etməklə ordumuzun mövqelərinə, o cümlədən Tovuz rayonunun Ağdam kəndinə minaatanlardan yenidən atəş açıb. Düşmənin bu təxribatlarına qarşı cəsur ordu bölmələri tərəfindən daha sərt cavab tədbirləri görülüb. Artilleriya, minaatan və tankların tətbiqi ilə gedən gecə döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin dəqiq atəşi ilə qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, avtomobil texnikası və canlı qüvvəsi məhv edilib. Bölmələrimizin endirdiyi sarsıdıcı zərbələr nəticəsində düşmən xeyli itki verib.

İyulun 13-də Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. İclasda bildirilib ki, bölmələrimiz düşmənin fəaliyyətinin qarşısının alınması məqsədilə tədbirlər görüblər. Təxribatı davam etdirmək məqsədilə mövqelərimizə hücuma keçməyə cəhd göstərən ermənilərin bu niyyətinin də qarşısı alınıb.

Tovuz döyüşlərinin mühüm əhəmiyyəti xalqımızın Ali Baş Komandanın rəhbərliyi ilə düşmənə qarşı qəhrəmancasına döyüşən ordumuzla milli həmrəylik nümayiş etdirməsi idi. Belə ki, iyulun 14-dən 15-nə keçən gecə on minlərlə gənc paytaxtımızda yürüş edərək Azərbaycan Ordusuna dəstəyini göstərib. Növbəti günlərdən başlayaraq, vətənpərvər igidlərimiz ordu sıralarına yazılmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bölmələrinə müraciət ediblər. Nazirlər Kabinetinin iyulun 15-də keçirilmiş iclasında Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Əgər kimsə, hansısa vətənpərvər insan orduda xidmət etmək istəyirsə, mən bunu ancaq alqışlayıram" çağırışına səs verən minlərlə vətəndaşımız xidmətin yerli idarə, şöbə və bölmələrinə gələrək könüllü şəkildə orduda xidmət etmək barədə arzularını bildirib və müvafiq qaydada qeydiyyata alınıblar.

İyulun 16-da səhər tezdən mövqelərimizə yenidən hücum etməyə cəhd göstərən düşmən Tovuz rayonunun Ağdam, Dondar Quşçu və Vahidli kəndlərini iriçaplı silahlar və minaatanlardan atəşə tutub. Lakin qarşı tərəf yenə cavab atəşi ilə susdurulub. İyulun 17-də Tovuz rayonu istiqamətində nisbi sakitlik olsa da, ümumilikdə gərginlik davam edib.

Tovuz döyüşləri bir daha göstərdi ki, Azərbaycan Ordusunun bölmələri düşmənin hər cür təxribatının və gözlənilməz hücumlarının qarşısını qətiyyətlə almaq qabiliyyətinə malikdir. 100-dən çox hərbçisi və onlarla hərbi obyektləri məhv edilən Ermənistan silahlı bölmələrinin şəxsi heyəti, hətta səngərləri qoyub qaçıblar. Düşmənin aktiv fəaliyyətinin qarşısının alınması məqsədilə görülən cəza tədbirləri nəticəsində ona məxsus müxtəlif təyinatlı hərbi texnika, döyüş vasitələri, komanda məntəqəsi və yüzlərlə canlı qüvvəsi məhv edilib. Döyüşlər zamanı bir neçə gün ərzində yüzlərlə yaralı və ölü erməniləri dəhşətə salıb. Tovuz döyüşlərində ordumuzun əsgər və yüksək rütbəli zabitləri qəhrəmanlıq və igidlik nümunələri göstərərək, erməni işğalçılarının törətdikləri təxribatların qarşısını qətiyyətlə alıblar. Ali Baş Komandan İlham Əliyev həmin günlərdə bir daha bildirdi: "Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib". Ölkə rəhbəri Tovuzda baş verən hadisələri Ermənistanın növbəti təxribatı adlandırdı və Azərbaycanın ərazi bütövlüyünü qoruyacağını qətiyyətlə ifadə etdi. Ordumuz bir daha göstərdi ki, Ermənistan onun gücü qarşısında aciz və zəifdir.

Düşmən təxribatının qarşısı alınarkən Azərbaycan Ordusunun 12 hərbi qulluqçusu - general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Anar Novruzov, mayor Namiq Əhmədov, gizir Yaşar Babayev, gizir İlqar Zeynallı, müddətdən artıq hərbi xidmət qulluqçuları Elçin Mustafazadə, Nazim İsmayılov, Vüqar Sadıqov, baş leytenant Rəşad Mahmudov, baş əsgər Elşad Məmmədov və əsgər Xəyyam Daşdəmirov şəhidlik zirvəsinə yüksəlib. Generalla əsgərin eyni səngərdə çiyin-çiyinə vuruşduğu Tovuz döyüşləri Azərbaycan Ordusunda illərdir səslənən "Hamı bir nəfər, bir nəfər hamı üçün!", "Hər şey Vətən üçün!" şüarlarının əməli təsdiqi, 44 günlük Vətən müharibəsindən öncə Böyük Qələbənin ayaq səsi idi.

Həmin döyüşlər zamanı acı məğlubiyyətə düçar olan Ermənistanda baş nazir hərbi rəhbərliyə itkiləri gizlətməyi tapşırmışdı. Onlar ölkənin gənclərini Azərbaycan ərazilərinin işğalına və terrora cəlb edirdilər. Ölüm və yaralılarla bağlı statistikanı gizlədən Ermənistan rəsmiləri əslində, xalqı deyil, özlərini aldadırdılar. Əvvəlcə 2 nəfər polislə 2 nəfər əsgərin yaralandığını bildirən erməni mənbələri çox keçmədi ki, yüzdən çox əsgər və zabitin öldürüldüyü və yaralandığı barədə xəbərləri ictimaiyyətə bəyan etdi. Onlar yenidən "yazıq", "məzlum" maskalarını geyinərək haray-həşir salıb dünyadan yardım istədilər. Tovuz rayonu ilə sərhəddə yaşayan ermənilər müxtəlif yollarla qaçıb canlarını qurtarırdılar. Həmin günlər Azərbaycan xalqı isə ayaqda idi, hər kəs döyüşmək, işğal altında olan torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın ətrafında sıx birləşmişdi və əmr gözləyirdi. Düşmən onun da şahidi oldu ki, Azərbaycan Ordusunun generalları və zabitləri öz əsgərləri ilə çiyin-çiyinə döyüşür, onları ruhlandırır və şəxsi nümunə göstərirlər. Tovuz döyüşləri Azərbaycanın hərbi qələbəsi ilə bərabər, onun geosiyasi üstünlüyünü də açıq şəkildə göstərdi. Belə ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının bir neçə üzvünün ölkəmizin haqlı mövqeyini dəstəkləməsindən sonra Türkiyə, Pakistan, Ukrayna və hətta İtaliya kimi bəzi Avropa ölkələri Azərbaycanın işğala məruz qaldığını bildirməklə kifayətlənmədilər, eyni zamanda ölkəmizə hər cür dəstək verə biləcəklərini bildirdilər. Məhz ölkəmizə bu xarici dəstəkdən sonra Ermənistan cəmiyyətində xaos başlandı.

Şəhidlərimiz və digər igidlərimizin qəhrəmanlığı, şücaəti Azərbaycan hərbçilərinin Vətənə, Ali Baş Komandana sadiqliyini və peşəkarlığını, torpaqlarımızı işğaldan azad etməyə hazır və qadir olduğunu dünyaya nümayiş etdirdi.

Bu döyüşlər göstərdi ki, Azərbaycan xalqı üçün milli maraqlar, ərazi bütövlüyü keçilməz qırmızı xətdir.

Tovuz döyüşlərinin Azərbaycan Ordusunun qələbəsi ilə başa çatmasını Ermənistanın hərbi ekspertləri də etiraf edirlər. Ermənistanın yüksək rütbəli zabiti Arkadi Ter-Tadevosyan müsahibəsində bildirirdi ki, Azərbaycan Ordusu bu döyüşlərdə öz hədəfinə çatdı. Onlar Ermənistanın bəzi hərbi obyektlərini darmadağın etməklə bərabər, həm də bizim əsas hərbi obyektlərimizin bir çoxunun yerini təsbit etməklə gələcək döyüşlərdə böyük üstünlüklər qazanmağı bacaracaqlar. Bu və ya digər ağır nəticələrə görə deyə bilərəm ki, Tovuz döyüşlərində Ermənistan ordusu məğlub tərəfdir.

Bu döyüşlər Ermənistanın hərbi gücsüzlüyünü, onun geosiyasi nüfuzunun zəifliyini və Azərbaycan Ordusu qarşısında məğlub olacağını bir daha göstərmişdi. Bütün bunlar xalqımızın döyüş ruhunun nə qədər yüksək olduğunu nümayiş etdirdi.

Tovuz döyüşləri Azərbaycan tarixinin şanlı qəhrəmanlıq səhifəsi olaraq xalqımızın yaddaşına həkk olunub. 30 il davam edən işğala 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsi zamanı əldə edilən möhtəşəm qələbə ilə son qoyuldu. Qısa müddət ərzində Ermənistan silahlı qüvvələrini darmadağın edən Azərbaycan Ordusunun bölmələri yerinə yetirilməyən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini öz gücü ilə icra etdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz bütün dünyaya öz gücünü göstərərək qısa müddət ərzində nələrə qadir olduğunu sübut etdi. İkinci Qarabağ müharibəsində əldə edilən şanlı qələbənin banisi, Ali Baş Komandan İlham Əliyevin dövlət başçısı seçildiyi gündən etibarən ordu quruculuğu sahəsində gördüyü işlər sayəsində hazırda müasir silah-sursat, hərbi texnika və yüksək döyüş qabiliyyətinə malik olan Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Uzaqgörən siyasətçi Prezident İlham Əliyev ərazi bütövlüyümüzü bərpa edən qalib sərkərdə kimi adını Azərbaycan tarixinə qızıl hərflərlə yazıb.

**Bayram SALMANOV,**
**"Respublika".**

Respublika .- 2024.- 12 iyul (№ 144).- S.1;7.